**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ**

«Təsdiq edirəm»
Tədris məsələləri
üzrə prorektor v.i.e:
dos. Zaur Məmmədov
"13" 02. 2026-cı il

# FƏNN SİLLABUSU
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 6003012- Muzey,arxiv işi və abidələrin qorunması.
**Fakültə:** Tarix-coğrafiya və incəsənət
**Kafedra:** Tarix və onun tədrisi metodikası
**I. Fənn haqqında məlumat:**
**Fənnin adı:** S/f Mədəniyyətşünaslıq Lənkəran Dövlət Universitetinin Elmi Şurasının 03.03.2017-ci il tarixli iclasının (protokol N06) qərarı ilə təsdiq edilmişdir.
**Kodu:** İPFS-B19
**Tədris ili:** III (2025-2026)
**Semestr:** VI (yaz)
**Tədris yükü:** Cəmi:150 saat, Auditoriya 45 saat: (30 saat mühazirə, 15 saat seminar)
**AKTS üzrə kredit:** 5 kredit
**Tədris forması:** Əyani
**Tədrisin dili:** Azərbaycan dili
**II. Müəllim haqqında məlumat:**
**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** dos.Məmmədov Zaur İbrahimxəlil oğlu.
**Kafedranın ünvanı:** Lənkəran ş., Ə.Məmmədov, 22
**Məsləhət günləri və saatı:** V gün, saat 16.00-17.00
**E-mail ünvanı:** mammadovzaur@mail.ru
**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**
**Əsas ədəbiyyat:**


1. Məmmədov. Z.İ, Bayramov M.C. Mədəniyyətşünaslıq dərs vəsaiti Bakı, 2022
2. Məmmədova M. Mədəniyyət nəzəriyyəsi. Bakı, 2003
3. Məmmədova S. Mədəniyyətşünaslıq. Bakı, 2001
4. Şükürov A. Kulturologiya . Bakı, 1998
5. Tağıyev Ə., Əliyev Q. Kulturologiya . Dərs vəsaiti. Bakı, 1997
6. Mədəniyyət tarixi və nəzəriyyəsi. Dərslik. Bakı, 2010
7. Məmmədov F. T. Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. Bakı, "Çıraq" nəşriyyatı, 2008
8. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Mədəniyyət tarixi və nəzəriyyəsi. BAKI – 2010

**Əlavə ədəbiyyat:**

9. Abbasov N.Müasir şəraitdə Azərbaycan dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Bakı.2008.
10. Tağıyev Ə. Seyidov M. Siyasət nəzəriyyəsi, Bakı-2012
11. Hüseynov İ. Əfəndiyeva N. Qədim dünya mədəniyyəti. Bakı 2009.
12. Марковой А.Н. Культурология. Москва. 2000.


**IV Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa fənnin tədrisinə zərurət yoxdur.
**V Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni vaxta başqa fənnin tədrisinə ehtiyac yoxdur.
**VI. Fənnin təsviri və məqsədi:**

Mədəniyyətşünaslıq mədəniyyəti, sivilizasiyanı, onun tarixini, insanla mədəniyyətin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini öyrənir, insanın həyatda öz yerini tapmasında səmərəli rol oynayır. Mədəniyyətşünaslıq bir elm kimi ümumbəşəri və milli mədəni proseslərin obyektiv qanunauyğunluğu, insanların maddi və mənəvi həyatının mühüm hadisələrini öyrənməyə cəhd edir. Mədəniyyətşünaslıq insan nəslinin mədəni qayda və tələbatlara yiyələnməsi zərurətini araşdırır, mədəni-mənəvi irsin yaranıb formalaşdığı mühiti və ilkin şərtləri öyrənir. Kursun tədrisində əsas məqsəd tələbələrdə bəşər cəmiyyətinrənən maddi və mənəvi mədəniyyətin öyrənən mədəniyyətşünaslıq elmi haqqında ümumi biliklər verməkdir. Kursda tələbələrə mədəniyyətşünaslıq elminin əsasları, humanitar elmlər arasında yeri, sivilizasiyanın tipləri.

CamScanner ilə skan edilib

...niyyətlə təbiyyat arasında münesibat, mədəniyyətin strukturu, funksiyaları, mədəniyyətin tarixi ...ləri. Mədəniyyətin inkişafında və onun yayılmasında dövlətin rolu. və s. haqqında tələbələrə ümumi biliklər verməkdir.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:
- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:
- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam açа bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17 dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| Bal aralığı (göstərilən ballar daxil olmaqla) | Hərflə işarəsi | Sözlə yazılışı |
|---|---|---|
| 91-100 bal | A | əla |
| 81-90 bal | B | çox yaxşı |
| 71-80 bal | C | yaxşı |
| 61-70 bal | D | kafi |
| 51-60 bal | E | qənaətbəxş |
| 51-baldan aşağı | F | qeyri-kafi |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X.Təqvim-mövzu planı:** 30 saat mühazirə, 15 saat seminar. **Cəmi 45 saat.**

| № | Tədris olunan mövzuların məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | | Mühazirə | |
| 1. | Mövzu. **Mədəniyyətşünaslığın predmeti, mahiyyəti və bir elm kimi inkişaf xüsusiyyətləri** | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | **Plan:**<br>1. Mədəniyyətşünaslıq elminin meydana gəlməsi<br>2. Mədəniyyətşünaslığın digər humanitar elmlərlə əlaqəsi.<br>3. Mədəniyyət termininin qısa tarixi.<br>4. Mədəniyyətin bir elm kimi tədqiq olunması.<br>5. Mədəniyyətin əsas göstəriciləri: Mədəniyyətin strukturu. Maddi və mənəvi mədəniyyət.<br>**Mənbə:** [1;2;9;10] | | |
| 2. | **Mövzu. Mədəniyyətin funksiyaları**<br>**Plan:**<br>1. Mühitə uyğunlaşma funksiyası və dərketmə funksiya.<br>2. İnformativ funksiya və kommunikativ funksiya.<br>3. Requlyativ (və ya normativ) funksiya.<br>4. Aksioloji (qiymətləndirici) funksiya.<br>5.Sosiallaşdırma (humanistləşmə) funksiyası.<br>**Mənbə:** [2;3;9;10] | 2 | |
| 3. | **Mövzu. Mədəniyyətin formaları**<br>**Plan:**<br>1. Bədii və əxlaq mədəniyyəti<br>2. Estetik və hüquq mədəniyyəti<br>3. İstehsal və xidmət mədəniyyəti<br>4. Siyasi mədəniyyət<br>5. Nitq mədəniyyəti<br>**Mənbə:** [2;3;9;10] | 2 | |
| 4. | **Mövzu. Qədim və orta əsrlər dünya mədəniyyəti**<br>**Plan:**<br>1. Misir və Mesopotamiya mədəniyyəti.<br>2. Çin və Hindistan mədəniyyəti.<br>3. Yunanıstan və Roma mədəniyyəti.<br>4. Qərbi Avropa mədəniyyəti. Bizans mədəniyyəti.<br>5. Ərəb-İslam mədəniyyəti. İran mədəniyyəti.<br>**Mənbə:** [1;4;10;12] | 2 | |
| 5. | **Mövzu. Yeni və müasir dövr dünya mədəniyyəti**<br>**Plan:**<br>1. İntibah mədəniyyəti.<br>2. Yeni dövr mədəniyyəti.<br>3. Avropada maarifçilik dövrü mədəniyyəti.<br>4. XIX-XX əsr dünya mədəniyyəti, sosialist mədəniyyəti.<br>**Mənbə:** [1;4;10;12] | 2 | |
| 6. | **Mövzu. Azərbaycanın qədim və orta əsrlər mədəniyyəti**<br>**Plan:**<br>1. Mannada sənətkarlıq. Dini təsəvvürlər.<br>2. Albaniya və Atropatena mədəniyyəti<br>3. Orta əsr Azərbaycan mədəniyyəti.<br>4. Azərbaycanda İslamın yayılması.<br>**Mənbə:** [1;4;10;12] | 2 | |
| 7. | **Mövzu: Azərbaycanda maarifçilik, müasir dövrü mədəniyyəti**<br>**Plan:**<br>1. Azərbaycanın maarifçiləri.<br>2. Sosializm mədəniyyəti.<br>3. Müstəqillik dövrü mədəniyyəti<br>**Mənbə:** [1;4;10;12] | 2 | |
| 8. | **Mövzu. Mədəniyyət və sivilizasiya.**<br>**Plan:**<br>1. Mədəniyyət və sivilizasiyanın oxşar və fərqli cəhətləri.<br>2. Şərq və qərb mədəniyyətlərinin qarşılıqlı inkişafı.<br>3. Mədəniyyət və sivilizasiya anlayışlarına fərqli münasibət. | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | 4. Sivilizasiyanın tipləri.<br>5. Cəmiyyətin təbiətə münasibəti.<br>6. Ekoloji problemlər və onların formalar<br>**Mənbə:** [6;7;8;9] | | |
| 9. | **Mövzu. Mədəniyyət və dövlət.**<br>**Plan:**<br>1. Mədəniyyətin inkişafında dövlətin rolu.<br>2. Mədəni irsin qorunması, müdafiəsi, yayılması, təbliği.<br>3. Azərbaycan respublikasının dövlət rəmzləri: Azərbaycan respublikasının dövlət bayrağı, Dövlət gerbi, Dövlət himni.<br>4. Mənəvi sərvətlərin yayılmasında kütləvi informasiya və kommunikasiya vasitələrinin rolu. Mədəniyyətin inkişafında mədəniyyət müəssisələrinin yeri.<br>5. Azərbaycan mədəniyyətinin xaricdə təbliği.<br>**Mənbə:** [9;10;12] | 2 | |
| 10 | **Mövzu. Milli mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri**<br>**Plan:**<br>1. Müstəqillik illərində dövlətin mədəniyyət siyasətinin prioritetləri.<br>2. Milli mədəniyyətin mahiyyəti və onun müfizəsinə dair dövlət tədbirləri.<br>3. Azərbaycan mədəniyyətinin xaricdə təbliği<br>4. Mədəniyyətdə milli və beynəlmiləl cəhətlər<br>**Mənbə:**[2;8;10] | 2 | |
| 11 | **Mövzu: Din və mədəniyyət**<br>**Plan:**<br>1. Din mənəvi mədəniyyətin mühüm tərkib hissələrindən biri kimi, dinlə əxlaq, fəlsəfə, elm və incəsənət arasında əlaqə.<br>2. Milli dinlər, dövlət dinləri, dünya dinləri.<br>3. Dini dünya görüşü, dini təşkilatlar<br>**Mənbə:** [1;6;8] | 2 | |
| 12 | **Mövzu: Dil və mədəniyyət. Gender siyasəti**<br>**Plan:**<br>1. Dil mədəniyyətin tərkib hissəsi kimi.<br>2. Dünya dilləri haqqında. Azərbaycan dili.<br>3. Gender siyasəti haqqında.<br>**Mənbə:** [6;7;8;9] | 2 | |
| 13 | **Mövzu: Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət və din münasibətləri.**<br>**Plan:**<br>1. Azərbaycan Xalq Cümhuriyyətində tolerantlıq<br>2. AXC-də din siyasəti<br>**Mənbə:** [1;6;8] | 2 | |
| 14 | **Mövzu: UNESCO-nun mədəni irs siyahısında Azərbaycan mədəniyyəti**<br>**Plan:**<br>1. Azərbaycan Respublikasının UNESCO ilə əməkdaşlığı<br>2. Azərbaycan mədəni irsinin UNESCO da tanınması<br>3. Azərbaycanın qeyri-maddi mədəni irsinin UNESCO-siyahısında<br>**Mənbə:** [1;6;8] | 2 | |
| 15 | **Mövzu: Konturkultura, subkultura. Multikulturalizm**<br>**Plan:**<br>1. Əks mədəniyyət anlayışı, subkulturanın yaranması, mədəni ekspansiyanın mədəniyyət-təbiət və cəmiyyət münasibətlərinə təsiri.<br>2. Multikulturalizm, interkulturalizm, kultrologiya.<br>3. Multikulturalizm siyasətinin yaranması, onun digər siyasət modellərindən fərqi, tolerantlıq, interkulturalizm, kultrologiya-müasir | 2 | |

CamScanner ilə skan edilib

| | | | |
|---|---|---|---|
| | mədəniyyət.<br>**Mənbə:** [1;6;8] | | |
| | **Cəmi:** | **30 saat** | |

| № | Tədris olunan mövzuların məzmunu | Saat | Tarix |
|---|---|---|---|
| | | Seminar | |
| 1 | **Mövzu. Mədəniyyətşünaslığın predmeti, mahiyyəti və bir elm kimi inkişaf xüsusiyyətləri** | 2 | |
| 2 | **Mövzu. Mədəniyyətin formaları** | 2 | |
| 3 | **Mövzu. Yeni və müasir dövr dünya mədəniyyəti** | 2 | |
| 4 | **Mövzu: Azərbaycanda maarifçilik, müasir dövrü mədəniyyəti** | 2 | |
| 5 | **Mövzu. Mədəniyyət və dövlət.** | 2 | |
| 6 | **Mövzu: Din və mədəniyyət** | 2 | |
| 7 | **Mövzu: Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət və din münasibətləri.** | 2 | |
| 8 | **Mövzu: Konturkultura, subkultura. Multikulturalizm** | 1 | |
| | **Cəmi:** | **15 saat** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:**
Təlim nəticəsində tələbələrin əldə etməli olduqları təsəvvür, vərdiş və bacarıqları:
Öyrənən tanış olur:
- Tələbələr mədəniyyətşünaslıq fənninin əhəmiyyətini, mədəniyyət anlayışı, mədəniyyət terminin qısa tarixi, mədəniyyətin inkişafının əsas istiqamətləri, maddi və mənəvi mədəniyyət haqqında ümumi biliklər əldə edəcəklər.
- Mədəniyyətin təkamül tarixi, tipləri, funksiyaları, qanunauyğunluqları, strukturu və mahiyyəti ilə tanış olacaqlar.
- İnsanla mədəniyyətin qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini öyrənəcəklər.
- Mədəniyyətin nəzəri problemləri, dünyadakı ölkə və xalqların mədəniyyətinin tarixi inkişaf mərhələləri, həmçinin müasir vəziyyəti haqqında biliklər əldə edəcəklər.
- Azərbaycan xalqının tarixi, ədəbiyyatı, incəsənəti, adət-ənənələri, ümumilikdə Azərbaycanın maddi və mənəvi mədəniyyəti haqqında ümumi biliklər alacaqlar.
- Müstəqillik illərində dövlətin mədəniyyət siyasətinin əsas prioritetləri, milli mədəniyyətin mahiyyəti ilə tanış olacaqlar.

**XII Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**
- mühazirə, seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- debat
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlimin nəticələri:**
- Mədəniyyətşünaslıq fənninin əhəmiyyətini anlayacaqlar;
- Mədəniyyət anlayışı,mədəniyyət termininin qısa tarixi, mədəniyyətinin inkişafının əsas istiqamətləri, maddi və mənəvi mədəniyyət haqqında ümumi biliklər əldə edəcəklər;
- Mədəniyyətin təkamül tarixi ,tipləri ,funksiyaları ,qanunauyğunluqları ,stukturu və mahiyyəti ilə tanış olacaqlar;
- İnsan və təbiətin qarşılıqlı təsirini öyrənəcəklər;
- Mədəniyyətin nəzəri problemləri, dünyadakı ölkə və xalqların mədəniyyətinin tarixi inkişaf mərhələləri, həmçinin müasir vəziyyəti haqqında biliklər əldə edəcəklər;
- Müasir dövrdə Azərbaycanda mədəniyyət sahəsində həyata keçirilən işlərlə tanış olacaqlar.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

**XV. Kollokvium sualları:**
**I kollokvium sualları:**

CamScanner ilə skan edilib

1. Mədəniyyətşünaslığın bir elm kimi predmeti və vəzifələri.
2. Mədəniyyətşünaslıq elminin meydana gəlməsi haqqında.
3. Mentalitet anlayışı
4. Maddi və mənəvi mədəniyyət.
5. Mədəniyyətin funksiyaları
6. Mədəniyyətin mühitə uyğunlaşma və dərketmə (qnoseoloji) funksiyası
7. Mədəniyyətin İnformativ və kommunikativ funksiyası
9. Mədəniyyətin formaları
9. Bədii mədəniyyət
10. Etik və estetik mədəniyyət.

**II Kollokvium sualları**

1. Qədim şərq mədəniyyəti
2. Antik mədəniyyət
3. Orta əsrlər Avropa mədəniyyəti
4. Orta əsr Azərbaycan mədəniyyəti.
5. İntibah və maarifçilik dövrü mədəniyyəti
6. Azərbaycanın qədim dövr mədəniyyəti.
7. Azərbaycanın intibah və maarifçilik dövrü mədəniyyəti
8. XIX-XX əsr dünya mədəniyyəti
9. XIX-XX əsr Azərbaycan mədəniyyəti
10. Sovet mədəniyyəti

**XVI. İmtahan sualları**

1. Mədəniyyətşünaslığın bir elm kimi predmeti və vəzifələri.
2. Mədəniyyətşünaslıq elminin meydana gəlməsi haqqında.
3. Mentalitet anlayışı
4. Maddi və mənəvi mədəniyyət.
5. Mədəniyyətin funksiyaları
6. Mədəniyyətşünaslığın digər elm sahələri ilə əlaqəsi
7. Mədəniyyətin mühitə uyğunlaşma və dərketmə (qnoseoloji) funksiyası
8. Mədəniyyətin İnformativ və kommunikativ funksiyası
9. Mədəniyyətin requlyativ (və ya normativ) və sosiallaşdırma (humanistləşmə) funksiyası
10. Mədəniyyətin aksioloji və insan qruplarının inteqrasiyası funksiyası
11. Mədəniyyətin formaları
12. Bədii mədəniyyət
13. Etik və estetik mədəniyyət.
14. Hüquq mədəniyyəti
15. Nitq mədəniyyəti
16. Qədim şərq mədəniyyəti
17. Antik mədəniyyət
18. Orta əsrlər Avropa mədəniyyəti
19. İntibah və maarifçilik dövrü mədəniyyəti
20. XIX-XX əsr dünya mədəniyyəti
21. Azərbaycanın qədim dövr mədəniyyəti.
22. Orta əsr Azərbaycan mədəniyyəti.
23. Azərbaycanın intibah və maarifçilik dövrü mədəniyyəti
24. XIX-XX əsr Azərbaycan mədəniyyəti
25. Sovet mədəniyyəti
26. Mədəniyyətin inkişafında dövlətin rolu.
27. Azərbaycan Respublikasının dövlət rəmzləri.
28. Sivilizasiyanın tipləri
29. Mədəniyyət və sivilizasiya anlayışları.
30. Mədəniyyət və təbiət-cəmiyyət münasibətləri
31. Mədəni irsin qorunması, müdafiəsi, yayılması və təbliği
32. Müasir dövrün qlobal problemləri
33. Din və mədəniyyət.
34. Dil və mədəniyyət
35. Gender siyasəti haqqında

CamScanner ilə skan edilib

36. Konturkultura siyasəti və onun əsas istiqamətləri
37. Mədəniyyətdə milli və beynəlmiləl cəhətlər
38. AXC-dövründə dövlət və din münasibətləri
39. UNESCO-nun mədəni irs siyahısında Azərbaycan mədəniyyəti
40. Multikulturalizm, interkulturalizm, müasir mədəniyyət

**"S/f Mədəniyyətşünaslıq"** fənninin sillabusu **6003012- Muzey, arxiv işi, abidələrin qorunması** ixtisasının təhsil proqramı, tədris planı və LDU Elmi Şurasının 03.03.2017-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmiş fənn proqramı əsasında tərtib edilmişdir.
Sillabus **"Tarix və onun tədrisi metodikası"** kafedrasında müzakirə edilərək, təsdiq edilmişdir **(13 fevral 2026-cı il, protokol № 6).**

**Fənn müəllimi: __________ dos.Z.İ.Məmmədov**

**Kafedra müdiri: __________ dos.K.F.Mahmudov**

CamScanner ilə skan edilib